# Qəbələ rayonunda iftar süfrəsi təşkil edilmişdir

Qəbələ rayonunun müxtəlif yaşayış məntəqələrində xeyriyyəçilər, imkanlı şəxslər və sadə vətəndaşlar tərəfindən oruc tutan insanlar üçün iftar süfrəsinin təşkil edilməsi bir ənənəyə çevrilmişdir. Ramazan bayramı ərəfəsində Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərovun və rayon icra hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə «Qafqaz» sport oteldə iftar süfrəsi təşkil edilmişdir. Ümumilikdə 200 nəfərin iştirak etdiyi bu xeyriyyə tədbiri rayon ictimaiyyəti tərəfindən razılıqla qarşılanmışdır. İftar mərasiminə dindarlarla yanaşı, imkansız şəxslər, qocalar, şəhid ailələrinin üzvləri, əmək veteranları, rayonda məskunlaşmış məcburi köçkünlər, kimsəsizlər dəvət olunmuşdular.





İftar məclisini Qəbələ şəhər cümə məscidinin imamı Ceyhun Rüstəmov açmış və müqəddəs Ramazan ayının fəzilətlərindən danışmış, «Qurani-Kərim»dən ayələr oxumuş, peyğəmbərlərimizin, imamların, ümumiyyətlə həyatdan köçmüş müsəlmanların ruhlarına Allahdan rəhmət diləmişdir. Sonra söz Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova verilmişdir. El ağsaqqalı müsəlman aləminin müqəddəs bayramı olan Ramazan bayramı münasibəti ilə məclisə toplaşanları, onların şəxsində bütün qəbələliləri təbrik etmiş və Ulu Yaradandan bu müqəddəs ayda hər kəsin arzu və diləklərinin qəbul olunmasını, ölkəmiz, dövlətimiz, xalqımız üçün xeyirli niyyətlərin hasil olunmasını arzulamışdır. Fəttah Heydərov çıxışına davam edərək Ramazan ayında müsəlmanların həmrəyliyinin daha da möhkəmlənməsini, mənəvi dünyalarının zənginləşməsini nəzər-diqqətə çatdırmışdır. Azərbaycan xalqı da, o cümlədən qəbələlilər də bütün dövrlərdə Ramazan ayının mənəvi üstünlüklərini yaşadaraq, həmişə milli və dini dəyərlərə sədaqət və məhəbbət göstəriblər. İnsanların mənəvi tərbiyəsi sahəsində Ramazan ayının mühüm rolu olmuşdur. Həqiqətən də bu bayram xeyirxahlıq, insanlar arasında mehribanlıq, saflıq və paklıq, Allaha inam və sevgi bayramıdır. İslam ideologiyasında bu ay xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı öz əksini tapır.

İftar süfrəsində iştirak edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək məclisə toplaşanları müqəddəs Ramazan ayı, qarşıdakı Ramazan bayramı münasibətilə təbrik etmiş, onlara öz xoş arzularını bildirmişdir.

Məclisdə şəhidlərimizin ruhuna dualar oxunmuş, bir daha qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə təbriklər səslənmiş, dövlətimizə, xalqımıza əmin-amanlıq, sülh,süfrələrə bol ruzi-bərəkət arzulanmışdır.

**Zahir KƏRİMOV.**

**Fotolar S. Umuyevindir.**

# Liderlik keyfiyyətləri əsas şərtdir

Müasir dünya xalqın iradəsi əsasında dövlət idarəçiliyi missiyasını üzərinə götürmüş liderləri qarşısında mühüm şərtlər müəyyənləşdirir. Bu şərtlərin hansı səviyyədə yerinə yetirilməsi, çağdaş dünyamızda gedən inkişaf proseslərinin ölkənin milli tərəqqisinə doğru istiqamətləndirilməsi hər bir dövlət rəhbərinin siyasi peşəkarlığından, uzaqgörənliyindən, öz xalqına və vətəninə bağlılığından asılıdır.

2008-ci ilin 15 oktyabr seçkilərində xalqın böyük etimadını qazanaraq ikinci dəfə dövlət başçısı seçilən cənab İlham Əliyevin ölkəyə ötən beş illik rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, dövlət başçısının bu şərtlərə necə dəqiqliklə əməl etdiyi bir daha qabarıq şəkildə görünür. Ötən beş ildə ölkənin qazandığı böyük uğurları gündəlik həyatında hiss edən orta statistik azərbaycanlının növbəti prezident seçkiləri ilə bağlı seçimi də dəyişməz olaraq qalmışdır. Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı—Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında qazanılan inanılmaz uğurlar xalqın son seçkilərdə də alternativsiz və prinsipial seçimini təmin etmişdir. Ulu öndərin hələ 2003-cü ilin Prezident seçkiləri ərəfəsində «Mən ona özüm qədər inanıram» deyə layiqli davamçısı kimi cəmiyyətə təqdim etdiyi cənab İlham Əliyevin respublikaya rəhbərliyi dövründə əldə olunmuş böyük nailiyyətlər Azərbaycan xalqının öz seçimində yanılmadığını göstərir. Prezident İlham Əliyev böyük öndərin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləmiş, yüksək idarəçilik və liderlik keyfiyyətləri ilə ictimai inamı doğrultmuşdur.

Dövlət başçısının ötən müddətdə əldə etdiyi nəhəng siyasi nailiyyətlər sistemi və düzgün koordinasiya həyata keçirilmiş fəaliyyətin məntiqi nəticəsi kimi diqqət çəkir. Cənab İlham Əliyevin fəliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə optimal qərarlar qəbul etməyi, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır. İlham Əliyevin peşəkar siyasətçi kimi praqmatikləşmiş dünya diplomatiyasının incəliklərinə dərindən bələd olması, islahatlara meylliliyi, mütərəqqi konservatizmlə liberalizmin uğurlu harmoniyasına əsaslanan düşüncə tərzi, reallığı düzgün dəyərləndirmək bacarığı, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, ən əsası millətinə və dövlətinə sevgisi, xalqda ona sonsuz inam və rəğbət hissi yaradan başlıca amillər xüsusi vurğulanmalıdır.

Azərbaycan Prezidenti seçki ərəfəsinldə və ondan sonra verdiyi hər bir vədə sadiqlik nümayiş etdirərək ictimai həyatın müxtəlif sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılmasını təmin etmişdir. Eyni zamanda, cənab İlham Əliyev Azərbaycan xalqına rəhbərlik missiyasının məsuliyyətini özünəməxsus şəkildə belə qiymətləndirir: **«Mən 1995-ci ildən siyasətdəyəm, siyasi fəaliyyətim də xalqın gözü qarşısındadır. Əlbəttə ki, siyasi fəaliyyətlə məşğul olmaq və prezidentlik fərqli şeylərdir. Prezident qəbul olunmuş bütün qərarlar üçün məsuliyyət daşıyır».**

Azərbaycan Prezidenti ölkəyə rəhbərliyi dövründə imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallığa adekvat addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, yeni dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmişdir. Bu gün dövlət başçısının rəhbərliyi altında görülən işlər, əldə olunan uğurlu nəticələr hələ ötən əsrin 90-cı illərinin ortalarından ulu öndər Heydər Əliyev tərəfindən başlanmış çoxşaxəli islahatlar kursunun məntiqi davamıdır. Ümummilli liderin müəllifliyi ilə hazırlanmış yeni neft strategiyasının yüksək dinamizmlə həyata keçirilməsi, Azərbaycanı Cənubi Qafqaz regionunda əsas söz sahibi edən qlobal layihələrin reallaşdırılmasında ardıcıllığın təmin olunması, müdafiə potensialımızın güclənməsi, beynəlxalq aləmdə ölkəmizin mövqelərinin möhkəmləndirilməsi, tarazlaşdırılmış xarici siyasət kursu, iqtisadiyyatda liberallaşdırma, elm-təhsildə yeni informasiya texnologiyalarının tətbiqi cənab İlham Əliyevin ən çox diqqət yetirdiyi məsələlərdəndir.

Cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin—təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan insanının mədəni-intellektual səviyyəsinin yüksəlişinə şərait yaratmışdır.

**(Ardı 4-cü səhifədə).**